**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-      /2019

“     ”            2019-cu il                                                                                    Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Nofəl Rəhman oğlu Abdullayevin katibliyi ilə,

iddiaçı XXXX oğlunun və cavabdehin nümayəndəsi XXXX oğlunun iştirakı ilə,

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-      /2018 saylı mülki iş üzrə qəbul etdiyi 11 sentyabr 2018-ci il tarixli qətnaməsindən iddiaçı XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i:**

İddiaçı XXXX oğlu cavabdeh XXXX qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, XXXX Elmi Şurasının 12 iyun 2018-ci il tarixli iclasının XX saylı protokolunun etibarsız sayılması, 12 iyun 2018-ci il tarixli XXX (X) №-li əmrinin ləğv edilməsi və işə bərpa edilməsi barədə qətnamə qəbul edilməsini xahiş  etmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 11 sentyabr 2018-ci il tarixli 2(004)-/2018 saylı qətnaməsi ilə iddia təmin edilməmişdir.

İddiaçı XXXX oğlu həmin qətnamədən apellyasiya şikayəti vermişdir.

Apellyasiya şikayətində işin faktiki halları göstərilmiş və əlavə olaraq göstərilmişdir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamış və işin hallarına uyğun olmayan nəticəyə gəlmişdir.

Məhkəmə iclasında iddiaçı XXXX oğlu apellyasiya şikayətini müdafiə etdi, cavabdehin nümayəndəsi XXXX oğlu isə apellyasiya şikayətinə etiraz etdi.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Belə ki, iş materiallarına əsasən müəyyən olunur ki, XXXX oğlu 12 yanvar 1966-cı il tarixdə XXXX aspiranturanın bitməsi ilə əlaqədar XXXX Kafedrasına müəllim vəzifəsinə işə qəbul edilmişdir. O, sonradan müxtəlif vəzifələrdə işlədikdən sonra 06.07.2007-ci il tarixdə XXXX müsabiqədən keçməsi ilə əlaqədar “XXXX” kafedrasının müdiri vəzifəsinə tam ştatda bərpa olunmuş, 26.11.2010-cu il tarixdə professor adı təsdiq olunmuş, 06.07.2012-ci il tarixdə seçki müddəti qurtardığına görə kafedra müdiri vəzifəsindən azad edilib, sonradan müsabiqələr keçmək şərti ilə həmin kafedrada professor vəzifəsində saxlanılıb və kafedra müdiri vəzifəsinin müvəqqəti icrası həvalə edilmiş, 26.12.2012-ci il tarixdə həmin kafedra üzrə professor vəzifəsinə yeni seçki müddətinə seçilmiş, 04.07.2013-cü il tarixdə “XXXX” kafedrası ilə “XXXX” kafedrası birləşdirilərək, yeni “İqtisadi nəzəriyyə və xidmət sahələrinin iqtisadiyyatı kafedrası yaradılmış və iddiaçı həmin kafedrada professor vəzifəsində saxlanılmışdır. XXXX XXX(X) saylı, 12 iyun 2018-ci il tarixli əmrinə əsasən XXXX oğlu i.e.d., “XXXX” kafedrasının professoru, müsabiqədən keçməməsilə əlaqədar cari semestrin sonunda 12.07.2018-ci ildən işdən azad edilmişdir. Əsas qismində Azərbaycan Respublikası Təhsil Nazirinin 07.08.1996-cı il tarixli XXX saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin

tutulması qaydaları haqqında “Əsasnamə”nin 3.7-ci bəndi və XXXX-nun Elmi Şurasının 12.06.2018-cı il tarixli iclasının XX saylı protokolundan çıxarış göstərilmişdir.

İddiaçının istinad etdiyi hallar ondan ibarətdir ki, XXXX Elmi Şurasının 12 iyun 2018-ci il tarixli iclasının XX saylı protokolunun heç bir qanuni əsası yoxdur. Belə ki, elmi şurada gizli səsvermədən əvvəl müsabiqədə iştirak edən namizəd kimi onun peşə-ixtisas hazırlığı və kafedranın müsbət rəyi-qərarı (əsaslandırılmış rəy) barədə məlumat vermək əvəzinə rektor əvəzi XXXX şura üzvlərini onun əleyhinə hazırlamış, açıq müzakirəyə yol vermədən yalnız özü onun əleyhinə çıxış etmiş, şuraya qədər ona dair kafedranın müsbət qərarı nəzərə alınmamışdır. Rektor əvəzi plagiatla bağlı ona qarşı böhtan xarakterli çıxış edərkən, təkcə professor XXXX etiraz bildirdi ki, ümumiyyətlə metodik vəsaitlərdə plagiatdan söz gedə bilməz. Bundan başqa rektor əvəzi səsvermənin nəticəsini hesablamaq üçün 3 nəfərdən ibarət hesablama komissiyası XXXXun öyrədilmiş yaxın adamları idi. O, hər 5 ildən bir seçilmiş (həmin şura ona bir nəfər kimi səs vermişlər) onun əleyhinə heç vaxt səs verən olmamışdır. Burdan da XXXXun qərəzli münasibəti özünü göstərir.

Cavabdehin nümayəndəsi iddiaya etiraz edir və bildirir ki, iddiaçı dəfələrlə plagiata yol versə də, nəticə etibarilə, onu işdən çıxarmayıb, sadəcə xəbərdarlıq etmişdilər. Lakin Təhsil Nazirinin xüsusi əmri ilə XXXX rektoru XXXX Universitetinin professoru XXXX tədris vəsaitlərində dəfələrlə plagiat hallarına yol verdiyi və bu halın ali təhsil müəssisəsinin nüfuzuna xələl gətirdiyi nəzərə alaraq, onun tutduğu vəzifəyə uyğunluğu məsələsinə 5 gün müddətində baxılması tapşırılmışdır. İddiaçının tutduğu vəzifədən çıxarılması səbəbi müddətinin tamam olması, lakin komissiyadan keçməməsi olmuşdur.

Məhkəmə kollegiyası hesab edir ki, iddia əsassızdır.

Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirinin 07.08.1996-cı il tarixli XXX saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında “Əsasnamə”nin 1.1-ci bəndinə əsasən Ali təhsil müəssisələrində kafedra müdiri, professor, dosent, baş müəllim, müəllim və assistent vakant vəzifələri bir qayda olaraq müsabiqə yolu ilə 5 il müddətinə tutulur. Ali təhsil müəssisəsi və ya kafedralar yeni təşkil edildikdə yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək zərurəti yarandıqda və digər müstəsna hallarda ayrı-ayrı şəxslər həmin vəzifələri sonradan yalnız müsabiqədən keçməklə (bir ildən çox olmamaq şərti ilə) müddətli əmək müqaviləsi bağlamaqla rektorun əmri ilə təyin olunurlar. Həmin müqavilənin müddətinin təkrar uzadılmasına yol verilmir.

Qanunvericiliyin tələblərindən də göründüyü kimi Ali təhsil müəssisələrində professor vəzifələri bir qayda olaraq müsabiqə yolu ilə 5 il müddətinə tutulur.

Müsabiqənin keçirilmə qaydaları isə həmin Əsasnamənin 3-cü bəndində əks olunmuşdur.

Həmin bəndə əsasən Ali təhsil müəssisələrində müsabiqə bütün tədris ili müddətində elan edilə bilər (3.1-ci yarımbənd). Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan olunduğu gündən başlayaraq 30 gündür (3.2-ci yarımbənd). Müsabiqədə iştirak etmək istəyən şəxs rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir: kadrların şəxsi qeydiyyat vərəqəsi; tərcümeyi-hal; ali təhsil, elmi ad və dərəcə haqqında sənədlərin surəti; dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı. Həmin ali təhsil müəssisələrində işləyən şəxsin müsabiqədə iştirak etmək üçün yalnız rektorun adına ərizə, elmi əsərlərin, kəşf və ixtiraların siyahısını təqdim etməsi kifayətdir. Müsabiqədə iştirak haqda ərizələrin qəbulundan imtina etmək yalnız namizədin müsabiqə üçün verilən elanın şərtlərinə uyğun gəlmədiyi və ya ərizənin verilmə müddəti gözlənilmədiyi hallarda ola bilər (3.3-cü yarımbənd). Sənədlər əvvəlcə müvafiq kafedranın iclasında müzakirə olunur. Professor-müəllim heyəti üçün seçkilərdə bu iclası kafedra müdiri və ya onu əvəz edən şəxs aparır, Kafedra hər bir namizədin elmi və elmi-pedaqoji fəaliyyətini obyektiv surətdə qiymətləndirərək, müvafiq qərar qəbul edir. Hər bir namizəd üçün kafedranın əsaslandırılmış rəyi ali məktəb (fakültə) elmi şurasına

təqdim edilir. Müsabiqədə iştirak edən namizədlər kafedra iclasında iştirak edə, yaxud onun qərarı ilə tanış ola bilərlər (3.4-cü yarımbənd). Kafedra müdiri seçkilərində kafedra iclasını fakültə dekanı (ümumaliməktəb kafedralarında isə rektor və ya tədris işləri üzrə prorektor) aparır (3.5-ci yarımbənd).

Hazırkı işdə də mübahisəsiz qaydada müəyyən olunur ki, XXXX oğlu 04.07.2013-cü il tarixdən XXXX “XXXX” kafedrasında professor kimi fəaliyyət göstərmiş, onun fəaliyyət müddəti 2018-ci ildə başa çatmış və o, həmin kafedrada boş olan professor vəzifəsini tutmaq üçün yenidən 2018-ci ildə ərizə ilə müraciət etmişdir.

XXXX-nun “XXXX” kafedrasının 08.06.2018-cı il tarixli iclasının XX saylı protokolundan görünür ki, 13 mart 2018-ci il tarixli “Respublika” qəzetində çap edilmiş elana əsasən “XXXX kafedrası üzrə boş olan professor vəzifəsinin tutmaq üçün prof. XXXX oğlunun ərizəsinin və hesabatının müzakirəsi aparılmış və “XXXX” kafedrasının professor vəzifəsinə “XXXX” kafedrasının i.e.d. S.Q.Cümşüdov tövsiyə edilmiş və “XXXX” kafedrasının əməkdaşı XXXX kafedranın professor vəzifəsinə seçilməsi ilə əlaqədar kafedranın rəyi təsdiq edilmişdir.

XXXX-nun Elmi Şurasının 12.06.2018-cı il tarixli iclasının XX saylı protokolundan və stenoqramından görünür ki, “İqtisadi nəzəriyyə və xidmət sahələrinin iqtisadiyyatı kafedrasında boş olan professor vəzifəsinin tutulması üçün XXXX oğlunun namizədliyi məsələsinə baxılmış və gizli səsvermənin nəticələrinə əsasən (lehinə - 4, əleyhinə - 35, etibarsız bülleten - 4) XXXX “İqtisadi nəzəriyyə və xidmət sahələrinin iqtisadiyyatı” kafedrasında professor vəzifəsinə seçilməmişdir.

XXXX XXX(X) saylı, 12 iyun 2018-ci il tarixli əmrinə əsasən XXXX oğlu i.e.d., “XXXX” kafedrasının professoru, müsabiqədən keçməməsi ilə əlaqədar cari semestrin sonunda 12.07.2018-ci ildən işdən azad edilmişdir.

Kollegiya qeyd edir ki, məhkəmənin XXXX Elmi Şurasının 12 iyun 2018-ci il tarixli iclası üzrə qəbul olunmuş qərarını etibarsız hesab etməyə heç bir səlahiyyəti yoxdur. Çünki həmin qərar səsvermədə iştirak edən şəxslərin səsverməsi ilə qəbul olunub və səsvermədə iştirak edən şəxslərin iradə ifadəsini əks etdirir.

Eyni zamanda kollegiya qeyd edir ki, həmin qərar yalnız bir halda etibarsız hesab edilə bilər ki, cavabdeh tərəfindən müsabiqənin keçirilmə qaydaları ilə bağlı prosedur qaydaları pozulmuş olsun.

Lakin hazırkı işdə müsabiqənin keçirilməsi ilə bağlı cavabdeh tərəfindən yuxarıda adı çəkilən Əsasnamənin 3-cü bəndində əks olunmuş müsabiqənin keçirilmə qaydaları üzrə bütün prosedur qaydalara tam olaraq əməl edilmiş və iclasın keçirilməsi qaydasında hər hansı bir pozuntu müəyyən olunmamışdır.

Azərbaycan Respublikası Təhsil Nazirinin 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında “Əsasnamə”nin 3.7-ci bəndində isə təsbit olunmuşdur ki, yeni müddətə vəzifəni tutmaq üçün ərizə verməmiş və ya müsabiqədən keçməmiş şəxslər cari semestrin sonundan gec olmayaraq, tutduqları vəzifədən rektor vəzifəsindən azad edilir və əmək kitabçasında aşağıdakı qeydiyyat aparılır: “Seçki müddəti qurtardığına görə tutduğu vəzifədən azad edilir. Bu halda kafedra müdirləri sonradan müsabiqədə iştirak etmək şərti ilə ən çoxu bir il müddətinə rektorun əmri ilə həmin ali məktəbdə müvafiq işlə təmin olunur.

Bu baxımdan kollegiya hesab edir ki, iddiaçının işdən azad edilməsi barədə XXX(X) saylı, 12 iyun 2018-ci il tarixli əmri verilərkən qanunvericiliyin yuxarıda qeyd olunan bütün tələblərinə əməl edilmişdir. Ona görə də, XXXX Elmi Şurasının 12 iyun 2018-ci il tarixli iclasının XXX saylı protokolunun etibarsız sayılması, 12 iyun 2018-ci il tarixli əmrin ləğv edilməsi barədə iddia tələbləri və həmin tələblərdən irəli gələn işə bərpa barədə iddia tələbləri rədd edilməlidir.

İddiaçının plagiatla bağlı istinad etdiyi hallar isə hazırkı mübahisənin predmetinə aid deyildir.

Beləliklə, kollegiya belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsinin qətnaməsi qanuni və əsaslı olmaqla işin hallarına uyğundur, apellyasiya şikayətində irəli sürülən dəlillər isə əsassızdır və mahiyyətcə düzgün olan qətnamənin ləğvi üçün əsas ola bilməz.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t  e t d i:**

İddiaçı XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)-      /2018 saylı mülki iş üzrə qəbul etdiyi 11 sentyabr 2018-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: Raqib Qurbanov

Hakimlər: Etibar Nəbiyev

Aida Hüseyn